HEQT

HÜQUQİ EKSPERTİZA Və QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# İLLİK HESABAT 2024

**“Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi” publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılıb**

## MƏRKƏZİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

- Mərkəzdə hüquqşünas ixtisası üzrə yaranmış yeni vakansiyalarla əlaqədar uyğun namizədlərin təyinatları aparılıb;
- “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2024-cü il 5 mart tarixli 15 nömrəli Fərmanla Mərkəzin Nizamnaməsinin təkmilləşdirilməsi üzrə bir sıra dəyişikliklər edilib;
- Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanına uyğun olaraq, Mərkəz 2024-cü ilin 1 iyun tarixindən elektron sənəd dövriyyəsi sisteminə qoşulub;
- Mərkəz Beynəlxalq Qanunvericilik Assosiasiyasına üzv olub;
- Mərkəzin rəsmi internet saytında təkmilləşdirilmələr aparılmaqla yeni bölmələr (“Hüquqi ekspertiza”, “Hazırlanmış sənədlər”, “Hüquqi tərcümə”, “İzahedici qeydlər”, “Qanunvericiliyə dair təkliflər”, “Sual-cavab” və “Hesabatlar”) əlavə edilib;
- Hesabat dövründə Mərkəzin rəsmi internet saytına 5800-dən artıq giriş, 16000-dən çox baxış, sosial şəbəkə hesablarında isə 56000-dən çox baxış qeydə alınmışdır;
- 2024-cü ildə Mərkəzin fəaliyyəti barədə rəsmi internet saytının “Xəbərlər” bölməsində, sosial şəbəkə hesablarında, habelə e-huquq.az informasiya portalında ümumilikdə 200-dən çox paylaşım edilib.

## HAZIRLANMIŞ HÜQUQİ AKTLAR

- "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya Qanunu layihəsi;
- "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanun layihəsi;
- “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Məhkəmələr və hakimlər haqqında”, “Polis haqqında”, “Prokurorluq haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Dövlət rüsumu haqqında”, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında”, “Məişət zorakılığının qarşısının alınması haqqında”, “Psixoloji yardım haqqında” və “Mediasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Qanun layihəsi;
- “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanunda dəyişiklik edilməsi barədə Qanun layihəsi;
- “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2005-ci il 14 iyul tarixli 258 nömrəli və Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman layihəsi və digər hüquqi aktlar.
- Ümumilikdə, hesabat dövrü ərzində **10 qanun** layihəsi, Azərbaycan Respublikası Prezidentinin **12 fərman layihəsi** və **2 sərəncam layihəsi**, Nazirlər Kabinetinin **5 qərar layihəsi** hazırlanıb.




## APARILMIŞ HÜQUQİ EKSPERTİZALAR

- “Minatəmizləmə fəaliyyəti haqqında” Qanun layihəsi;
- “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Qanun layihəsi;
- “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı və “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihələri;
- “Tibb müəssisələrinin akkreditasiyası Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi;
- “Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları” və digər hüquqi aktlar.
- Ümumilikdə, hesabat dövrü ərzində **6 qanun layihəsinin**, **3 fərman layihəsinin**, **3** Nazirlər Kabinetinin **qərar layihəsinin** hüquqi ekspertizası keçirilib.

**Az1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz Plaza, 7-ci mərtəbə**

**office@heqt.gov.az**

**www.heqt.gov.az**

## QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ QAYDASINDA GÖRÜLƏN İŞLƏR VƏ VERİLƏN TƏKLİFLƏR

- "Beynəlxalq müqavilələr haqqında" qanun layihəsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Xarici İşlər və Ədliyyə nazirliklərinin nümayəndələrinin iştirakı ilə görüşlər keçirilərək növbəti müzakirələr aparılıb;



- Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi üzrə Konsepsiya sənədinin 1-ci və 2-ci fəsilləri əhatə edən hissələri, habelə Mülki Məcəlləyə əlavə edilməsi nəzərdə tutulan 2-1-ci fəsil ("Qeyri-əmlak hüquqları") üzrə Konsepsiya sənədinin layihəsi;
- "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" fərman layihələri;
- "Vəkillər və vəkillik fəaliyyəti barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" qanun layihəsi və digər hüquqi akt layihələri hazırlanıb.

## HÜQUQİ ARAYIŞLAR VƏ RƏYLƏR

- Konstitusiya Məhkəməsinin müraciəti üzrə **10 hüquqi rəy**;
- Energetika Nazirliyinin müraciətinə əsasən **1 hüquqi rəy**;
- Müxtəlif qanun layihələri və hüquqi məsələlərlə bağlı **2 hüquqi arayış və 1 rəy**.

## HÜQUQİ TƏRCÜMƏLƏRİN TƏŞKİLİ ÜZRƏ İŞLƏR

- "Xarici Arbitraj Qərarlarının Tanınması və İcrası haqqında" Nyu-York Konvensiyası (azərbaycan dilinə);
- "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu (ingilis dilinə);
- "Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat" (ingilis dilinə) və digər sənədlər.
- Ümumilikdə, hesabat dövründə cəmi 137 vərəq olmaqla 11 sənədin tərcüməsi yekunlaşıb.



## NORMATİV HÜQUQİ AKTLARIN KEYFİYYƏTİNİN ARTIRILMASI MƏQSƏDİLƏ HAZIRLANAN AKTLAR

- Mərkəzin Müşahidə Şurasının 2024-cü il 19 yanvar tarixli MŞ/1-001 nömrəli Qərarı ilə təsdiq edilmiş "Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları";
- Mərkəzin İcraçı direktorunun 2024-cü il 16 yanvar tarixli F-04/2024 nömrəli əmri ilə təsdiq edilmiş "Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat".

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

- Mərkəzin rəsmi internet saytında "İzahedici qeydlər" adlı xüsusi bölmə yaradılıb və 2024-cü il ərzində qəbul edilmiş bir sıra hüquqi aktlara dair izahedici qeydlər hazırlanaraq sözügedən bölmədə yerləşdirilməsi təmin edilib;
- Mərkəzin rəsmi internet saytının "Hazırlanmış sənədlər" və "Hüquqi ekspertiza" bölməsində Mərkəz tərəfindən hüquqi ekspertizası aparılmış, hazırlanmış və qüvvəyə minmiş 83 hüquqi aktın yerləşdirilməsi təmin edilib.

## MƏRKƏZİN TƏMSİL OLUNDUĞU MÜXTƏLİF TƏDBİRLƏR

- "Mülki qanunvericilik üzrə islahatlar: Almaniya təcrübəsi" mövzusunda keçirilən **seminar**;
- "Ətraf mühitinin gücləndirilməsində maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu" mövzusunda **elmi-praktiki konfrans**;
- "Azərbaycan bazarında sindikat kreditləşməsi" mövzusuna dair **konfrans**;
- Mərkəzin **3 əməkdaşı** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında **təlimlərə** cəlb edilib;
- Beynəlxalq Qanunvericilik Assosiasiyasının "Dünya üzrə normayaratma sahəsində yeni inkişaflar haqqında" iclasında Mərkəzin rəhbərliyi və əməkdaşları iştirak edib.
- Ümumilikdə, hesabat dövründə Mərkəzin əməkdaşlarının **28 tədbirdə** iştirakı təmin edilib.

## MƏRKƏZƏ DAXİL OLMUŞ MÜRACİƏTLƏR ÜZRƏ

Dövlət qurumlarından və vətəndaşlardan Mərkəzə **316 sənəd** daxil olub, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılıb.